**HEYDƏR ƏLİYEVİN TƏBİƏTƏ QAYĞISI VƏ KLASSİKLƏRİN ƏSƏRLƏRİNDƏ TƏBİƏT MÖVZUSU**

**Elnurə Hüseynova**

*AMEA-nın İ.Nəsimi adına Dilçilik İnstitutu, Bakı*
*elnure.huseynova@mail.ru*

Təbiət bizi əhatə edən aləmin məcmusunu təşkil edir. Tədqiqatımızın I hissəsini Heydər Əliyevin təbiətin mühafizəsi, qorunması ilə bağlı qərarları, bu sahədə atdığı addımları təşkil edir. Belə ki, Heydər Əliyevin təbiəti mühafizə ilə bağlı həyata keçirdiyi tədbirləri 2 dönəmdə: H.Əliyevin I hakimiyyət dönəmi (1969-1982) və H.Əliyevin II hakimiyyət dönəmində (1993-2003) gördüyü tədbirlər olaraq qruplaşdıra bilərik. H.Əliyevin Azərbaycana rəhbərliyinin I dövrü olaraq qəbul edilən 1969-1982-ci illərdə təbiətin mühafizəsi, ətraf mühitin qorunması ilə bağlı ümumilikdə 8 qanun və 32 qərar qəbul edilmişdir. Qəbul edilən bu qərar layihələri çərçivəsində ölkə ərazisində bir sıra: Şirvan (1969), Bəsitçay (1974), Ağgöl (1978), İsmayıllı (1981) qoruqları, Zuvand (1969), Ordubad (1969), Qubadlı (1969), İsmayıllı (1969), Kiçik Qızılağac (1978), Daşaltı (1981) yasaqlıqları qurulmuş, təbii ehtiyatlardan səmərəli istifadə, şoran ərazilərin yaşıllaşdırılması məqsədilə Ağstafaçay (1969), Araz su qovşağı (1970), Sərsəng (1976), Yuxarı Xanbulançay (1976), Arpaçay (1977), Sirab (1980), Şəmkir (1982) və s. su anbarları, həmçinin xeyli sayda irili-xırdalı su xətlərinin istifadəyə verilməsi ölkədə şoran torpaqların azaldılması, əkinçiliyin artırılması, münbit ekoloji mühitin formalaşdırılmasına təkan vermişdir. Həmçinin bu dönəmdə toplam 51 min hektar meşə zolağı salınmışdır. H.Əliyevin rəhbərliyinin II dövründə (1993-2003) bir-birini təkrarlayan bir qisim qurum və komitələr ləğv edilmiş, onların bazasında Azərbaycan Prezidentinin 23 may 2001-ci il tarixli 485 saylı Fərmanı ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi təsis edilmişdir. H.Əliyevin hakimiyyətinin II dönəmində ekoloji sahədə bir sıra önəmli sənədlər – qanunlar: "Balıqçılıq haqqında" (1998), "Heyvanlar aləmi haqqında" (1999), "Yerin təki haqqında" (1999), "Ekoloji təhlükəsizlik haqqında" (1999), "Atmosfer havasının mühafizəsi" (2001) və s.; fərmanlar: "Ətraf mühitin mühafizəsi haqqında" (1999), "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" (2001), "Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında" (2003); sərəncamlar: "Azərbaycan Respublikasında ekologiyaya dair milli proqramların təsdiq edilməsi haqqında" (2003), "Azərbaycan Respublikasının Şahbuz Dövlət Təbiət Qoruğunun və Ordubad Milli Parkının təşkili haqqında" (2003) qəbul edilmiş, həmçinin bir sıra beynəlxalq konvensiyalara: 1972-ci il "Ümumdünya mədəni və təbii irsinin mühafizəsi haqqında" (1993), 1973-cü il "Kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarəti haqqında / CITES" (1998),1997-ci il "Ozon qatını dağıdan maddələr üzrə Monreal Protokolu" (2000), 1951-ci il "Bitki mühafizəsi haqqında Beynəlxalq Roma Konvensiyası" (2000) və s. qoşulmuşdur. Həmçinin, Azərbaycan Respublikası Konstitusiyasının II fəslini təşkil edən "Dövlətin əsasları" başlığının 16.2-ci maddəsində "Azərbaycan dövləti ... ölkənin təbiətini, xalqın tarixi, mədəni və mənəvi irsini qoruyur" və Konstitusiyanın II bölməsi "Əsas hüquqlar, azadlıqlar və vəzifələr" başlığında yer alan "Sağlam ətraf mühitdə yaşamaq hüququ" adlı 39-cu maddəsinin IV bəndində "Dövlətin ekoloji tarazlığın saxlanılmasına, yabanı bitkilərin və vəhşi heyvanların qanunla müəyyən edilmiş növlərinin qorunmasına təminat verir." maddələri ekoloji doqmatı təşkil edən hüquqi bazis qismində çıxış edir. Təbiəti mühafizə haqqında indi də bir sıra qanunlar qəbul edilir, yaşıllaşdırma, ağacəkmə aksiyaları keçirilir. 2010-cu il ölkəmizdə "Ekologiya ili" adlandırılmış və müvafiq tədbirlər həyata keçirilmişdir. 25 dekabr 2023-cü il ölkə Prezidentinin Sərəncamı ilə 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" elan edilmişdir.

Tədqiqatımızın II hissəsini təbiətə aid leksik vahidlərin klassiklərin əsərlərində işlənmə məqamları təşkil edir. Öz növbəsində "təbiət" sözü ərəb mənşəli **"طبيعة**[tabiatun]" sözündən dilimizin lüğət fonduna

dilin səs məxrəcinə uyğunlaşdırılmış biçimdə daxil olmuşdur. Bu sözün etimologiyası ərəb mənşəli "طبع[tabaa]" feilindən əmələ gəlmişdir ki, mövcud feil təbiət / təbii vəziyyət / xasiyyət / möhür / damğalamaq / möhür basmaq / çap etmək / yerləşdirmək / təəssürat oyatmaq kimi bir-birindən fərqli mənaları bildirir. Digər tərəfdən, " طبيعة " sözü ərəbcə Azərbaycan dilində təbiət mənasından əlavə, nəşrlər / fizika elmi / təbii xüsusiyyət / keyfiyyət, XIII-XX əsrləri əhatə edən dönəm Osmanlı türkcəsində isə yaradılışdakı keyfiyyət / məşrəf / xasiyyət, "Klassik Azərbaycan ədəbiyyatında işlənən ərəb və fars sözləri lüğəti"ndə təbii şəraitin məcmusu / üzvi və qeyri üzvi aləm / insan fəaliyyəti ilə əmələ gəlməmiş hər şey / məcazi mənada: xasiyyət / adət anlamlarını daşıyır. "Təbiət" sözünün türkdilli qaynaqlarda ilk dəfə XII əsrə aid Qaraxanlı türkcəsində Ədib Əhməd bin Mahmud Yüknəki tərəfindən yazılmış "Ətibətül Həqayiq" əsərində günümüzdə işlənən anlamına rast gəlirik. "Azərbaycan dilinin izahlı lüğəti"ndə "təbiət" sözü: 1) yerdə təbii şəraitin (yerin səthi, bitki aləmi, iqlim və s.) məcmusu, üzvi və qeyri-üzvi aləm, yerdə insan fəaliyyəti nəticəsində əmələ gəlməmiş hər şey; 2) şəhər və ya başqa yaşayış məntəqəsindən kənar yer və ya yerlər (meşə, dağ, çay və s.); 3) xasiyyət, xarakter mənalarında yer alır.

Klassiklərin əsərlərində, Azərbaycan ədəbiyyatında təbiət leksikası vahidlərinin işlənməsi özünü iki başlıca aspektdə göstərir. Belə ki, yuxarıda təbiət anlayışından geniş şəkildə bəhs etdik. Mövcud təbiət anlayışını özündə əks etdirən relyef, iqlim, flora və fauna leksikası vahidləri bədii ədəbiyyatda həm həqiqi, eyni zamanda həm də məcazi mənada qarşımıza çıxır. Məhz bu səbəbdən klassik ədəbiyyatda yer alan təbiət leksikası vahidlərinin 2 formada: 1) Həqiqi mənada – təbiəti qorumaq, təbiətin ecazkarlığı, təbiətin vəsf olunması; və 2) Məcazi mənada – İlahi eşq, gözəlin vəsfi, metafora olaraq yer aldığını görmək olar. Bunlardan ilk əvvəl həqiqi mənada həm təbiətin mühafizəsi, eyni zamanda ibrətamiz nəsihət bildirən Nizami Gəncəvinin "Şərəfnaməsi"nin "Öz nəfsinə öyüd və nəsihət" bölümündə yer alan aşağıdakı misralara diqqət yetirək:

Xurmanın ağacı olmazsa uca,
Uşaqlar çox ziyan verər ağaca.
Yolu gözətçiylə olar qorumaq,
Odsa gül içində saxlanar, ancaq.

Yuxarıdakı misralarda həm həqiqi mənada alçaq ağacın uşaqlar tərəfindən qırılması ehtimalı olduğu söylənilir, həm də bu misraları insanın ləyaqət və şərəfini itirməməsi, daim uca tutmasının doğru olduğu qeyd edilir. İnsan şəxsiyyət və mənəviyyatını həmişə uca tutmalıdır. Nizami Gəncəvinin "İqbalnamə" əsərində yer alan növbəti misralarda isə təbiətin vəsf olunduğunu görə bilərik:

Bizim bu torpaqda hələ də çox var,
Heç ayaq dəyməmiş səhralar, dağlar.
Orada göyərtidən, sudan əsər yox,
İsti bərk istidir, soyuq bərk soyuq.
Bir yerdə göyərti bitməsə əgər,
Orada canlı məxluq necə ömür edər?

Burada isə təbiət leksikası vahidləri öz həqiqi mənalarında yer alırlar. Göründüyü kimi, təbiət leksikası vahidləri hər zaman metafora, bənzətmə formasında deyil, bəzən əsərlərdə öz həqiqi mənalarında da işlənir. "Təbiət" sözünün ifadə etdiyi digər bir mənanı Nizami Gəncəviyə aid aşağıdakı şeir nümunəsində görmək olar:

Hansı bir səfərə görsəm hazırlıq,
Xoş təbiətimi alaram azıq.

Öz növbəsində təbiət leksikası vahidlərinin məcazi mənada İlahi eşqi, Allaha (C.C.) bağlılığı, Məhəmməd Peyğəmbərin (s.a.s.) vəsfini bildirdiyi, həmçinin dini kontekstdən əlavə sevdiyi gözəlin vəsfi, müxtəlif obrazlılıq, metaforalar şəklində də ədəbiyyatda yer aldığını görmək olar. İmadəddin Nəsiminin "Gördüm camalın şəmini rövşən, məhi taban budur" qəzəlində gözəlin vəsfi floristik leksika vahidləri: "gül, yasəmən, reyhan" sözləri ilə ifadə olunmuşdur:

كل بركي اكدم زلكه طاغلدي يزك اوستنه
كل بركيدر بو ياسمن خالن كل ريحن بدر
Gül bərgi əkdüm zülfünə, tağıldı yüzün üstünə,
Gül bərgidür bu yasəmən xalun, güli-reyhan budur.

İmadəddin Nəsiminin ictimai-fəlsəfi şeirlərindən olan "Çarə yoxdur yara, əhsən, ey könül, yar istəmə" şeirində isə ornitonim olaraq yer alan " **شهبازى**[şəhbazi]" sözü həm aşağıdakı misralarda, həm də klassik dönəm şairlərinin əsərlərində istər həqiqi mənasında qızıl quş, istərsə də məcazi mənada igid məfhumunu bildirir:

استيان مردارى كركسدر مدام اى طرفه قوش
خضرتك شهبازى اولغل هيچ مردار استمه
İstəyən mürdari kərkəsdür müdam, ey türfə quş,
Xizr tək şəhbazi olğıl, heç murdar istəmə.

Öz növbəsində əsərlərində təbiət leksikasından təsvir mahiyyətində geniş şəkildə istifadə edən Məhəmməd Füzulinin qəzəllərinin təhlili nəticəsində bu sözlərin gözəlin, sevdiyi kəsin timsalını, görkəminin vəsfindən ziyadə, İlahi eşqi simvolizə etdiyini söyləmək mümkündür:

خورشيد جمالندن اومـه صالدي نقان
صبح اولدى طوراى شمع ندر بونجه شكر خواب
Xurşidi cəmalından ol ay saldı nigab,
Sübh oldu dur ey baht, nədür bunca şəkər xab.

Məhəmməd Füzulinin "Ey naveki şəvqun sipəri sinəi ahbab" qəzəlindən olan yuxarıdakı iki misranın hərfi tərcüməsində ay kimi gözəl simanın örtüsünü günəşin qaldırıb, sübhün açılması ilə bəxtin şirin yuxudan oyanmalı olduğu fikri aşılanır. Fəqət bu misraların təsəvvüfi anlamına endikdə günəşin doğması ilə işığını ondan alan ayın günəş qarşısında sönük qalması, dolayısı ilə haqq gəldiyi an batilin məhv olması, həqiqətlərin, hər gözəlliyin arxasında onu yaradan Allahın (C.C.) təcəllisinin olması qeyd olunur. Sübhün gəlib bəxtin yuxudan oyanması ilə qəflətdə olan insanın onu yaradan Allahı (C.C.) dərk etməsi ilə qəflət yuxusundan ayılması simvolizə olunur. Göründüyü kimi, təbiət leksikası vahidləri istər türk mənşəli, istərsə də klassik dönəm şairlərində alınma – ərəb və fars sözləri ilə ifadə olunaraq, həm gözəlin vəsfini, daha dərin anlamda isə təsəvvüfü, dini motivləri özündə ehtiva edir.

Bundan əlavə, şifahi xalq ədəbiyyatının sevilən janrlarından olan bayatılarda bəzən toponimlərin digər leksik vahidləri bildirən sözlərlə omofonlar təşkil etdiyini görmək olar:

Qara yazı,
Baxtımın qara yazı.
Bir yanımı Kür kəsdi,
Bir yanımı Qarayazı.

Yuxarıdakı klassiklərin əsərlərindən gətirilən misallardan göründüyü kimi, təbiət leksikası vahidlərinin ən müxtəlif obrazlılıqda, məna çalarlılığında, dini təsəvvüfi və ya insani duyğuların bəlağətli şəkildə əks edilməsi fonunda, həqiqi mənada da yer almaqla insanları yaşadığı mühitə qayğı göstərməyə, digər tərəfdən, gözəlin vəsfi üçün bir obyekt olaraq işlənməsində görmək olar. Təbiətin ecazkarlığı şairləri hər zaman özünə cəlb etmiş, əsərlərində təbiət motivləri xüsusi yer tutmuşdur. Tədqiqatımızı Səməd Vurğunun təbiətə ünvanladığı bu sualla bitirmək istərdik:

Gecə də, gündüz də qaynayır həyat,
Həyatdan zövq alır qoca kainat.
Mənim təbiətə bir sualım var:
Ölərmi bunları görən sənətkar?